TÜİB
Türkiyə-Azərbaycan İş Adamları və Sənayeçiləri İctimai Birliyi

# İŞ DÜNYAMIZ

XÜSUSİ BURAXILIŞ / 2025



XÜSUSİ BURAXILIŞ

# II AZƏRBAYCAN-TÜRKİYƏ İNVESTİSİYA FORUMU

## AZƏRBAYCAN-TÜRKİYƏ İŞ DÜNYASINDA YENİ ÜFÜQLƏR


PASHA Holding
Ziraat Bank Azərbaycan
Demirören Holding
AZERSUN
MAKRO Holding
AZTRANSRAIL OUR EXPERIENCE, YOUR ADVANTAGE...
AVIS
IKRA Logistika LLC
Coca-Cola İçecek
BETA TEA
AYTIM BEHIND THE PERFECTION
TİKA
nada llc. MEP & Facade System Engineering & Contracting

TRANSMİLLİ QİDA ŞİRKƏTİ




- KƏND TƏSƏRRÜFATI
- QİDA İSTEHSALI
- QABLAŞDIRMA VƏ KAĞIZ SƏNAYESİ
- SATIŞ VƏ TİCARƏT

AZERSUN

AZ1029 Azərbaycan, Bakı, Heydər Əliyev pr, 94 Ofis +99 412 496 60 01/66 14 | +99 412 447 19 80 | Faks +99 412 496 19 06 | info@azersun.com | www.azersun.com



**Hüseyin BÜYÜKFIRAT**
TÜİB İdarə heyətinin sədri

## AZƏRBAYCAN - TÜRKİYƏ İQTİSADİ TƏRƏFDAŞLIĞINDA YENİ İNKİŞAF MƏRHƏLƏSİ

Azərbaycan və Türkiyə arasında iqtisadi münasibətlər iki ölkə arasında dərin tarixi bağlara, qarşılıqlı inama və strateji tərəfdaşlığa əsaslanır. Bu əməkdaşlıq modeli bu gün regional sabitlik, iqtisadi təhlükəsizlik və yeni inkişaf perspektivləri baxımından xüsusi əhəmiyyət daşıyır. Azərbaycan–Türkiyə iqtisadi inteqrasiyası son illərdə yeni mərhələyə yüksələrək qarşılıqlı sərmayə, ticarət və sənaye əməkdaşlığı üçün geniş imkanlar yaratmışdır.

Bu çərçivədə, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və Türkiyə Respublikasının Ticarət Nazirliyinin dəstəyi, Azərbaycan Respublikasının İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin (AZPROMO) və Türkiyə–Azərbaycan İş Adamları və Sənayeçiləri İctimai Birliyinin (TÜİB) birgə təşkilatçılığı ilə 16 dekabr tarixində Bakıda keçirilən II Azərbaycan–Türkiyə İnvestisiya Forumu, biznes dairələrini və iş adamlarını yeni əməkdaşlıq perspektivləri və investisiya imkanları ilə daha yaxından tanış etmək məqsədi daşıyır.

Tədbirdə hər iki ölkədən rəsmi şəxslərin, dövlət qurumlarının, iş adamlarının, sahibkar birliklərinin və palataların nümayəndə heyətlərindən ibarət 500-dən çox iştirakçının iştirakı nəzərdə tutulur. Bu geniş tərkib həm forumun əhəmiyyətini, həm də Azərbaycan–Türkiyə iqtisadi münasibətlərinin artıq regional və qlobal miqyasda strateji çəkiyə malik olduğunu göstərir.

Forumun əsas məqsədi Azərbaycan və Türkiyə arasında iqtisadi inteqrasiyanın dərinləşdirilməsi, biznes əməkdaşlığının genişləndirilməsi, yeni investisiya imkanlarının araşdırılması və ortaq layihələrin təşviqidir. Tədbir çərçivəsində açılış mərasimi, imzalanma mərasimləri, investisiya təqdimatları və iqtisadiyyatın müxtəlif sahələrinə həsr edilmiş tematik panel müzakirəl'ri keçiriləcək.

TÜİB olaraq missiyamız hər zaman olduğu kimi, Azərbaycan və Türkiyə iş dünyası arasında körpü rolunu gücləndirmək, biznes dairələrini bir araya gətirmək, əməkdaşlıq imkanlarını genişləndirmək və hər iki ölkə iqtisadiyyatına real töhfə verən təşəbbüsləri dəstəkləməkdir. Bizim üçün ən böyük dəyər iki ölkə iş adamlarının uğurla həyata keçirdiyi layihələr və qarşılıqlı inam əsasında qurulan uzunmüddətli tərəfdaşlıqlardır.

İnanırıq ki, II Azərbaycan-Türkiyə İnvestisiya Forumu iki ölkə arasındakı strateji əməkdaşlığın daha da möhkəmlənməsinə, yeni layihələrin formalaşmasına və regional iqtisadi inteqrasiyanın dərinləşməsinə mühüm töhfə verəcək.

**HÜSEYİN BÜYÜKFIRAT**
TÜRKİYƏ-AZƏRBAYCAN İŞ ADAMLARI VƏ SƏNAYEÇİLƏRİ BİRLİYİNİN (TÜİB) SƏDRİ


**İŞDÜNYAMIZ**
*Rüblük biznes jurnalı!*

**Təsisçi:**

TÜİB
Türkiyə-Azərbaycan İş Adamları və Sənayeçiləri İctimai Birliyi

***Türkiyə və Azərbaycan İş Adamları və Sənayeçiləri İctimai Birliyi***

**Redaksiya heyəti**
Nərgiz İsayeva
Məhsəti Xəlilova

*Jurnaldakı materiallardan mənbə göstərilməklə istifadə edilə bilər. Redaksiya ilə müəlliflərin mövqeyi üst-üstə düşməyə bilər.*

**Ünvan:**
Səməd Vurğun küç. 43, World Business Center

**Tel:**
(+994 12) 497 15 86

**www.tuib.az**
**e-mail: info@tuib.az**

# anonslar

XÜSUSİ BURAXILIŞ




6 **ÖMER BOLAT:** "Orta Dəhliz Türkiyə və Azərbaycan üçün yalnız bir nəqliyyat xətti deyil, həm də regİonal gələcəyi formalaşdıran strateji bir körpü rolunu oynayır"



13 **Prof. Dr. BİROL AKGÜN:** "Türkiyə və Azərbaycan iki qardaş dövlətdir və bütün sahələrdə münasibətlərimizin təməlində “Bir millət, iki dövlət” prinsipi dayanır"

18 MÜSAHİBƏ
**VÜSAL QASIMLI:** "İqtisadi inkişaf intellektual potensiala bağlıdır"

24 MÜNASİBƏT
**Əmək Və Sosial Təminat Sahələrində Türkiyə-Azərbaycan münasibətləri:** Köklü əməkdaşlığin tarixi inkişafi və müasir dinamikasi

27 İNVESTİSİYA
Azərbaycanda investisiya Mühiti: Üstünlüklər, hüquqi qorunma və yeni imkanlar

33 İQTİSADİ ZONALAR
Qarabağ və Şərqİ Zəngəzur: Azərbaycanın Yenİ İqtİsadİ Zonaları

# Xarici ticarətiniz

dünyanın bir çox ölkəsində fəaliyyət göstərən
Ziraat Maliyyə Qrupunun üzvü

# Ziraat Bank Azərbaycan ilə daha etibarlı!




"Ziraat Bank Azərbaycan" ASC, A.R. Mərkəzi Bankının 30.12.2014 tarixli 255 saylı lisenziyası əsasında fəaliyyət göstərməkdədir.
Bakı şəh., Yasamal ray., Həsən bəy Zərdabi pr., 191

*9229 Müştəri Əlaqə Mərkəzi
www.ziraatbank.az

Ziraat Bank Azərbaycan

/ziraatbankaz

TÜRKİYE CUMHURİYETİ
TİCARET BAKANLIĞI

AZƏRBAYCAN
RESPUBLİKASININ
İQTİSADİYYAT
NAZİRLİYİ

TUİB
Türkiya-Azərbaycan İş Adamları
və Sənayeçiləri İctimai Birliyi

azpromo
Azərbaycan Respublikasının
İxracın və İnvestisiyaların Təşviqi Agentliyi

# II. AZERBAYCAN – TÜRKİYE YATIRIM FORUMU

Bakü, 23 Aralık 2025

# II AZƏRBAYCAN – TÜRKİYƏ İNVESTİSİYA FORUMU

Bakı, 23 dekabr 2025-ci il


ST REGIS
BAKU
THE RESIDENCES
The Residences at The St. Regis, Baku
A force of attraction
Elegance and ease, eternally balanced. Float through the day,
buoyed by infinite care and refined precision
1-4 bedroom residences & 2-5 bedroom villas
PASHA
Real Estate
*2024
srresidencesbaku.com



# ÖMER BOLAT:
# "ORTA DƏHLİZ TÜRKİYƏ VƏ AZƏRBAYCAN ÜÇÜN YALNIZ BİR NƏQLİYYAT XƏTTİ DEYİL, HƏM DƏ REGİONAL GƏLƏCƏYİ FORMALAŞDIRAN STRATEJİ BİR KÖRPÜ ROLUNU OYNAYIR"

"BİR MİLLƏT, İKİ DÖVLƏT" ŞÜARI İLƏ HƏR ZAMAN YAN-YANA OLDUĞUMUZ QARDAŞ AZƏRBAYCANLA TARİXİ VƏ MƏDƏNİ ORTAQ DƏYƏRLƏRİMİZİN YANINDA COĞRAFİ YAXINLIQ, İKİ ÖLKƏ ARASINDA İDENTİFİKASİYA NÖMRƏSİ İLƏ GİRİŞ İMKANLARI VƏ BİRBAŞA UÇUŞ İMKANLARI NƏZƏRƏ ALINDIQDA, XARİCDƏ MÜALİCƏ ALMAQ İSTƏYƏN AZƏRBAYCAN VƏTƏNDAŞLARI ÜÇÜN ÖLKƏMİZ HƏMİŞƏ ƏN VACİB İSTİQAMƏT OLMUŞDUR. BU BAXIMDAN, İKİ ÖLKƏ ARASINDA SƏHİYYƏ TURİZMİ SAHƏSİNDƏKİ POTENSİALI REALLAŞDIRMAQ ÜÇÜN QARŞILIQLI FƏALİYYƏTLƏRİN ARTIRILMASI ƏN BÖYÜK MƏQSƏDLƏRİMİZDƏN BİRİDİR.

***- II Azərbaycan-Türkiyə İnvestisiya Forumunun iqtisadi əməkdaşlıqdakı strateji əhəmiyyəti nədir?***

- II Azərbaycan-Türkiyə İnvestisiya Forumu Azərbaycanla qarşılıqlı investisiyaların artırılması istiqamətində iştirakçıları bir araya gətirməsi və yeni əməkdaşlıqlara zəmin yaratması baxımından mühüm platforma kimi dəyərləndirilir. Birinci Forumun 21 dekabr 2023-cü ildə Bakıda AZPROMO və TÜİB-in birgə təşkilatçılığı ilə keçirilməsi və geniş iştiraklı özəl sektor görüşlərinə ev sahibliyi etməsi bu platformanın səmərəliliyinin göstəricisi olmuşdur. İlk forum çərçivəsində investisiya-maliyyə, kənd təsərrüfatı, səhiyyə-turizm, sənaye-texnologiya, ticarət-logistika və enerji-tikinti kimi altı əsas istiqamət üzrə panellər təşkil edilmiş, xüsusilə yaşıl enerji, ağıllı şəhərlər, logistika dəhlizləri və Qarabağın bərpası kimi gələcəyə yönəlik sahələrdə ortaq vizyon ön plana çıxmışdır. Bu il keçiriləcək ikinci forum isə əvvəlki mərhələdə formalaşdırılmış çərçivəni daha konkret birgə investisiya layihələrinə və uzunmüddətli tərəfdaşlıqlara çevirmək imkanı yaradacaqdır.

***- Birinci forumla bağlı fikirləriniz və bu ilki forumdan gözləntiləriniz nələrdir?***

- Birinci Forumun "birlikdə istehsal və birlikdə inkişaf" ideyasını düzgün şəkildə əks etdirdiyini düşünürəm. Forum çərçivəsində AZPROMO ilə TÜİB arasında ticarət və investisiyaların artırılmasına dair Fəaliyyət Planı üzrə razılıq əldə olunması, həmçinin iki ölkənin şirkətləri arasında birbaşa anlaşmaların imzalanması iş adamlarımızı daha da yaxınlaşdırmışdır. Bu ilki forumdan gözləntimiz ilk forumda müəyyən edilmiş fəaliyyət planı və razılaşmaların konkret investisiya layihələrinə çevrilməsi, xüsusilə enerji, nəqliyyat və logistika, rəqəmsal iqtisadiyyat və yaşıl keçid sahələrində yeni ortaq layihələrin, birgə istehsal təşəbbüslərinin və üçüncü ölkələrə yönəlik birgə təşəbbüslərin inkişaf etdirilməsidir.

***- Azərbaycan Türkiyə İnvestisiya Forumu, TDT ölkələri ilə birgə keçiriləcək forumlara nümunə ola biləcək bir modeldirmi?***

- İnvestisiya Forumunun "nəticəyönlü" və "sahələri mərkəzə alan" yanaşması iş dünyası üçün effektiv bir alternativ təqdim edir. Bu çərçivədə Türk Dövlətləri təşkilatı daxilində Türk Ticarət və Sənaye Palataları Birliyi ilə qurulacaq güclü əməkdaşlıq, İnvestisiya Forumunun təsirini və aparıcı rolunu daha da gücləndirə bilər.

***- Türkiyə ilə Azərbaycan arasında ticarət dövriyyəsi son illərdə əhəmiyyətli dərəcədə artmışdır. Qarşıdakı dövr üçün müəyyənləşdirdiyiniz ticarət hədəfləri nələrdir?***

- Azərbaycan ilə xidmət ticarətimizin də son illərdə yüksək artım templəri göstərməsini məmnuniyyətlə müşahidə edirik. 2023-cü ildə Azərbaycanın xidmət ixracımıza töhfəsi əvvəlki illə müqayisədə 26% artaraq 728,2 milyon ABŞ dollarına, 2024-cü ildə isə 30% artaraq 946,5 milyon ABŞ dollarına çatmışdır. Eləcə də 2024-cü ildə əvvəlki ilə nisbətən 33% artım nümayiş etdirərək Azərbaycandan 253,8 milyon ABŞ dolları dəyərində xidmət idxalı həyata keçirmişik. Bununla da qardaş və dost Azərbaycanla 2024-cü ildə — turizm istisna olmaqla — xidmət ticarəti dövriyyəmiz ilk dəfə olaraq 1 milyard ABŞ dollarını keçmiş və 1,2 milyard ABŞ dolları səviyyəsinə çatmışdır.

Bu rəqəmlərə turizmi də daxil etdikdə, xidmət ticarəti dövriyyəmizin daha yüksək olduğunu qeyd edə bilərik. Belə ki, 2024-cü ildə əvvəlki illə müqayisədə təxminən 12% artımla 956 mindən çox Azərbaycan vətəndaşı ölkəmizi ziyarət etmişdir. Turizmdən sonra Azərbaycanla xidmət ixracımızda "daşımacılıq xidmətləri"nin ilk sırada yer aldığını, daha sonra isə konsaltinq və peşəkar xidmətlər, sərgi-fuar fəaliyyəti, reklamçılıq, kommersiya-texniki xidmətləri əhatə edən "digər biznes xidmətləri"nin və "informasiya texnologiyaları" sektorunun önə çıxdığını görürük.

Azərbaycanla kino və serial sahəsində xidmət ixracımızın da artdığını müşahidə edirik. 2023-cü il üzrə bu rəqəm 1,5 milyon ABŞ dolları, 2024-cü il üzrə isə 5,1 milyon ABŞ dolları olaraq qeydə alınmış və bazar payındakı artım xüsusilə

Azərbaycan ilə xidmət ticarətimizin də son illərdə yüksək artım templəri göstərməsini məmnuniyyətlə müşahidə edirik. 2023-cü ildə Azərbaycanın xidmət ixracımıza töhfəsi əvvəlki illə müqayisədə 26% artaraq 728,2 milyon ABŞ dollarına, 2024-cü ildə isə 30% artaraq 946,5 milyon ABŞ dollarına çatmışdır. Eləcə də 2024-cü ildə əvvəlki ilə nisbətən 33% artım nümayiş etdirərək Azərbaycandan 253,8 milyon ABŞ dolları dəyərində xidmət idxalı həyata keçirmişik.



diqqət çəkmişdir. Bu yüksəliş tendensiyasının qarşıdakı dövrdə də davam edəcəyini proqnozlaşdırırıq.

***- Hansı sahələrin iki ölkə arasındakı ticarəti daha da artırmaqda lokomotiv rolunu oynayacağını düşünürsünüz?***

Xidmət ticarəti sahəsində baxdıqda da Azərbaycan və Türkiyə arasında çox müxtəlif əməkdaşlıq imkanlarının mövcud olduğunu görürük. Azərbaycan həm podratçı, həm də texniki müşavirlik sahələrimiz üçün əsas bazarlardan biri kimi çıxış edir. Türk podratçı şirkətləri indiyə qədər Azərbaycanda ümumilikdə 21,1 milyard ABŞ dolları dəyərində layihə həyata keçirmiş və ölkə firmalarımızın xaricdə ən çox iş gördüyü 8-ci ölkə olmuşdur. Texniki müşavirlik sahəsində isə Azərbaycan 510,4 milyon ABŞ dolları ilə indiyə qədər ən çox layihə həyata keçirilmiş ölkə olmuşdur. Bu məlumatlar əsasında hər iki sahənin ikitərəfli iqtisadi əlaqələrimizin inkişafında lokomotiv rolunu oynamaya davam edəcəyi və qarşıdakı dövrdə ticarətimizin artımına əhəmiyyətli töhfə verəcəyi proqnozlaşdırılır.

“Bir millət, iki dövlət” şüarı ilə hər zaman yan-yana olduğumuz qardaş Azərbaycanla tarixi və mədəni ortaq dəyərlərimizin yanında coğrafi yaxınlıq, iki ölkə arasında identifikasiya nömrəsi ilə giriş imkanları və birbaşa uçuş imkanları nəzərə alındıqda, xaricdə müalicə almaq istəyən Azərbaycan vətəndaşları üçün ölkəmiz həmişə ən vacib istiqamət olmuşdur. Bu baxımdan, iki ölkə arasında səhiyyə turizmi sahəsindəki potensialı reallaşdırmaq üçün qarşılıqlı fəaliyyətlərin artırılması ən böyük məqsədlərimizdən biridir.

Digər tərəfdən, Azərbaycanla kino və serial sahəsində xidmət ixracımız 2023-cü il üçün 1,5 milyon ABŞ dolları, 2024-cü il üçün isə 5,1 milyon ABŞ dolları olmuşdur. Bu kontekstdə qeyd olunan sahənin iki ölkə arasındakı ixrac dövriyyəsinin artırılmasına töhfə verəcəyini düşünürəm.

***- Azərbaycanda investisiya etmək istəyən Türk iş adamlarına hansı strateji sahələrə fokuslanmalarını tövsiyə edirsiniz?***

- Azərbaycan bazarı Türk iş dünyası üçün həm mövcud tərəfdaşlıqları dərinləşdirəcək, həm də yeni investisiya imkanları açacaq çoxölçülü fürsətlər təqdim edir. Xüsusilə 2024-cü ildə qeyri-neft sektorlarında müşahidə olunan sürətlənmə və iqtisadiyyatın göstərdiyi artım iş adamlarımızın Azərbaycanda investisiya edəcəkləri sahələrin çeşidliliyi baxımından önəmli hesab olunur. Qarşıdakı dövrdə xüsusi olaraq önə çıxan sahələr kimi kimya, maşınqayırma, enerji və qida sənayesi, həmçinin kənd təsərrüfatı, informasiya və kommunikasiya texnologiyaları, nəqliyyat və turizm sahələrini qeyd edə bilərik. Bu sahələr həm firmalarımızın təcrübəyə malik olduğu, həm də Azərbaycanın investisiya prioritetlərinə uyğun sahələrdir.

Xüsusilə kimya və maşınqayırma sənayesinə aid olaraq deməliyəm ki, polimer materialların istehsalı, poliuretan məhsulları kimi məhsulların daxili bazara və ixracata yönəlmiş istehsalı üçün investisiyalar olduqca vacibdir. Digər tərəfdən, Azərbaycanda mövcud olan maşın istehsalı müəssisələrinin müasir texnologiya, texnoloji bilik və bacarıq baxımından gücləndirilməsi istiqamətində Türk iş adamlarının investisiyaları ölkəyə böyük töhfələr verə bilər.

Hamımızın bildiyi kimi, enerji sektoru Azərbaycanda iqtisadi fəaliyyətlərdə əhəmiyyətli yer tutur. Bu kontekstdə, ölkəmiz iş dünyası üçün Azərbaycanda enerji sektorunda istifadə olunan maşın və avadanlıqların istehsalı, həmçinin alternativ və bərpa olunan enerji mənbələrinin istehsalında istifadə olunan müxtəlif maşın və avadanlıqların istehsalı vacib fürsət olaraq qarşımıza çıxır.

Kənd təsərrüfatı sektorunda infrastruktur ehtiyaclarının ödənilməsi üçün soyutma sistemləri, anbar kimi vahidlə-

Xüsusilə kimya və maşınqayırma sənayesinə aid olaraq deməliyəm ki, polimer materialların istehsalı, poliuretan məhsulları kimi məhsulların daxili bazara və ixracata yönəlmiş istehsalı üçün investisiyalar olduqca vacibdir. Digər tərəfdən, Azərbaycanda mövcud olan maşın istehsalı müəssisələrinin müasir texnologiya, texnoloji bilik və bacarıq baxımından gücləndirilməsi istiqamətində Türk iş adamlarının investisiyaları ölkəyə böyük töhfələr verə bilər.





rin tikintisi; kənd təsərrüfatı maşın və ehtiyat hissələri ilə gübrə kimi daxilolmaların təmin edilməsi və yem istehsalına yönəlmiş müəssisələrin inşası və işlədilməsi sahələrində Türk şirkətlərinin təcrübəsi və texnologiyası Azərbaycanın müasir kənd təsərrüfatı vizyonu ilə güclü uyğunluq göstərir.

Bundan əlavə, kənd təsərrüfatı məhsullarının istehsalına investisiya etməyi planlaşdıran iş adamlarımız üçün də əhəmiyyətli imkanlar mövcuddur. Tütün, şəkər çuğunduru, meyvə və tərəvəz istehsalı, pambıq, çay kimi məhsulların yanında heyvandarlıq sahəsini də bu çərçivəyə daxil edə bilərik. Arıçılıq, balıqçılıq kimi çoxşaxəli istehsal fəaliyyətlərinə ediləcək investisiyalar həm Azərbaycana qida təminatı sahəsində mühüm töhfə verəcək, həm də Türk iş adamları üçün Asiya qitəsində yeni imkanlar açacaq.

Bununla yanaşı, qida məhsullarının istehsalı və buna bağlı olaraq inkişaf edəcək kənd təsərrüfatı məhsullarının emalı sənayesi ilə qablaşdırma materiallarının istehsalı sahələrində də Türk iş adamlarının Azərbaycanda çox məhsuldar tərəfdaşlıqlar quracağına və böyük uğurlar əldə edəcəyinə inanıram.

Eyni zamanda, nəqliyyat infrastrukturu sahəsində firmalarımızın həyata keçirəcəyi investisiyalar həm Azərbaycan mənşəli qeyri-neft sektoruna aid məhsulların dünyaya çıxmasına imkan yaradacaq, həm də digər Mərkəzi Asiya ölkələrinin Avropa İttifaqı bazarlarına çıxışına kömək edəcək. Bu baxımdan, bu sahədəki Türk investisiyalarının da müsbət təsirə malik olacağını qiymətləndirirəm.

Digər tərəfdən, ölkəmizin bütün dünyada özünü sübut etmiş sahələrindən biri olan turizm sektoru da ölkələrimiz arasında yeni əməkdaşlıqların qurulması baxımından son dərəcə əhəmiyyətlidir. Azərbaycanda yaxın vaxtlarda keçirilmiş I Avropa Olimpiya Oyunları və Formula 1 Qran Prisi kimi tədbirlər ölkənin turizm sahəsində tanınmasını artırır. Qarşıdakı dövrdə daha sürətli artım göstərəcəyi proqnozlaşdırılan turizm fəaliyyətləri nəticəsində Azərbaycanda zəruri olacaq infrastruktur və müəssisələr Türk iş adamları üçün yeni imkanlar təqdim edir. Bu sahədə həyata keçiriləcək turizm kompleksləri, otel və səhiyyə turizmi mərkəzləri kimi investisiyalarla ölkələrimizin birgə qazanc əldə edəcəyini düşünürəm.

Nəhayət, günümüzdə əhəmiyyətini inkar etmək mümkün olmayan informasiya texnologiyaları sektoru da iki ölkə üçün mühüm imkanlar təqdim edir. Azərbaycanda dövlət xidmətlərinin rəqəmsallaşdırılmasına yönəlmiş işlər və “Azərbaycan 2030: Sosial-İqtisadi İnkişaf üçün Milli Prioritetlər” gündəliyi çərçivəsində önəm daşıyan GovTech gündəliyi xüsusi əhəmiyyət kəsb edir. Bu baxımdan, rəqəmsal yayım alətləri və qəbul cihazlarının istehsalı, kompüter texnologiyaları kimi sahələrdə həyata keçiriləcək investisiyaların da mühüm imkanlar təqdim edə biləcəyini düşünürəm.

Bütün tərəfdaşlar üçün istifadəçi dostu, sürətli və asan əldə edilə bilən rəqəmsal xidmət təqdimatı bu sahədəki Türk investorlarının təcrübəsi ilə uyğun gəlir. Dövlət xidmətlərindən əlavə, FinTech və kibertəhlükəsizlik kimi sahələrdə də Türk təşəbbüskarları üçün yeni investisiya imkanları mövcuddur. Bu çərçivədə, informasiya texnologiyaları sektorunun iki ölkə üçün iqtisadi əməkdaşlığı gələcəyə daşıyacaq ən strateji sahələrdən biri olacağına inanıram.



Enerji sektoru Azərbaycanda iqtisadi fəaliyyətlərdə əhəmiyyətli yer tutur. Bu kontekstdə, ölkəmiz iş dünyası üçün Azərbaycanda enerji sektorunda istifadə olunan maşın və avadanlıqların istehsalı, həmçinin alternativ və bərpa olunan enerji mənbələrinin istehsalında istifadə olunan müxtəlif maşın və avadanlıqların istehsalı vacib fürsət olaraq qarşımıza çıxır.

Əlbəttə, iki ölkə arasındakı əməkdaşlıq və investisiya imkanlarını yuxarıda qeyd etdiyim sahələrlə məhdudlaşdırmaq mümkün deyil. Dünyada həyata keçirdikləri investisiyalarla böyük təcrübə qazanmış Türk şirkətləri mövcud bilik və təcrübələri ilə Azərbaycanda da çox məhsuldar və gəlirli investisiyalara imza atacaq, həmçinin hər iki ölkə üçünson dərəcə uğurlu fəaliyyətlər həyata keçirəcəklər. Qeyd olunan imkanların qısa müddətli və ya dövrü olmadığını, uzunmüddətli strateji əməkdaşlıqları nəzərdə tutduğumu bir daha vurğulamaq istəyirəm.

Digər tərəfdən, Azərbaycan türkcəsinin dil yaxınlığı Azərbaycanda Türk seriallarına olan marağı artırır. Bundan əlavə, Azərbaycan, Müstəqil Dövlətlər Birliyi (MDB) ölkələrinə etdiyimiz kino və serial ixracında bir qapı rolunu oynadığından, Azərbaycan vasitəsilə iş adamları ilə tərəfdaşlıqlar qurulması və əməkdaşlıq imkanlarının artırılması baxımından müsbət təsir göstərəcəyini qiymətləndiririk.

***- İki ölkə arasındakı biznes mühitinin daha güclü əməkdaşlıqlar qurması üçün nazirlik olaraq hansı dəstəkləri təmin edirsiniz?***

- 2012-ci ildən bu günə qədər Nazirliyimiz tərəfindən ölkəmizin xidmət ixracını artırmaq məqsədilə həyata keçirilən dəstək proqramları çərçivəsində; informasiya texnologiyaları, digər xidmətlər, təhsil, kino, sərgi-fuar fəaliyyəti, qastronomiya, logistika, səhiyyə, nəşriyyat və idarəetmə məsləhətçiliyi sahələrində fəaliyyət göstərən Türk şirkətlərinin Azərbaycana yönəlmiş sərgi-fuar iştirakına, agentlik komissiya ödənişlərinə, reklam və tanıtım xərclərinə, xaricdə ofis kirayəsinə, marka qeydiyyatı və qorunması xərclərinə dəstək göstərilmişdir. Verilən bu dəstəklərin hər iki ölkə arasındakı ticarət dövriyyəsinə müsbət təsir göstərdiyinə inanırıq.

***- Orta Dəhlizin gücləndirilməsi həm Türkiyənin, həm də Azərbaycanın strateji prioritetlərindəndir. Türkiyənin bu dəhlizdəki rolunu necə qiymətləndirirsiniz?***

- Orta Dəhliz, yaşanan böhranlarla birlikdə qlobal təchizat zəncirlərində təhlükəsiz və davamlı bir alternativ marşrut kimi önə çıxması ilə bölgə ölkələri arasında bu dəhlizin səmərəliliyinin artırılmasına yönəlmiş işlər intensivləşdirilmişdir. Bu çərçivədə ölkəmiz Orta Dəhlizin fasiləsiz, təhlükəsiz və rəqabətqabiliyyətli beynəlxalq ticarət xətti halına gətirilməsi istiqamətində Azərbaycan, Qazaxıstan, Gürcüstan və Türkmənistan ilə yaxın əməkdaşlıq şəraitində fəaliyyətini davam etdirir.

Ticarət Nazirliyi olaraq prioritetimiz Orta Dəhliz üzrə bürokratik prosedurları minimuma endirərək daşımaların fasiləsiz həyata keçirilməsini təmin etməkdir. Bu istiqamətdə gömrük proseslərinin sadələşdirilməsi və rəqəmsal məlumat mübadiləsi məqsədilə TDT üzv ölkələri arasında qanunvericilik uyğunluğu sahəsində əhəmiyyətli irəliləyişlər əldə edilmişdir.

Nəhayət, Zəngəzur Koridorunun açılması ilə ölkəmiz Azərbaycan və Mərkəzi Asiya ölkələri ilə birbaşa avtomobil və dəmir yolu əlaqəsinə malik olacaq və bu vəziyyət mövcud marşrutlarda tranzit müddətlərini və xərcləri əhəmiyyətli dərəcədə azaldacaq. Hazırda Mərkəzi Asiyaya həyata keçirilən ixracatda əsasən istifadə olunan Sarı keçid məntəqəsi - Azərbaycan xətti təxminən 950 km uzunluğunda olsa da, Zəngəzur Koridorunun Türkiyə ilə Azərbaycan arasındakı məsafəni təxminən 400 km qısaldacağı proqnozlaşdırılır.

Layihə ilə Türkiyənin regional logistika mərkəzi rolu güclənəcək, Orta Dəhlizin səmərəliliyi artacaq və ölkənin şərq bölgələrində iqtisadi canlanmaya töhfə veriləcək.

***- Orta Dəhlizin logistika, ticarət və enerji daşımaları baxımından iki ölkəyə təmin edəcəyi uzunmüddətli faydalar nədir?***

- Orta Dəhliz Türkiyə və Azərbaycan üçün yalnız bir nəqliyyat xətti deyil, həm də regional gələcəyi formalaşdıran strateji bir körpü rolunu oynayır. Daşıma müddətlərinin həftələrdən günlərə endirilməsi ilə rəqabət qabiliyyəti əhəmiyyətli dərəcədə artır; dəmir yolu, avtomobil və dəniz yolu infrastrukturlarının qarşılıqlı uyğun işləməsi limanları, dəmir yollarını və logistika mərkəzlərini daha da gücləndirə bilər. Bu sayədə Türkiyə və Azərbaycan yalnız tranzit nöqtələ-



ri deyil, eyni zamanda regional qarşılıqlı əlaqənin mərkəzləri kimi yüksələ biləcəklər.

Mərkəzi Asiya ilə Avropa arasındakı ticarət axınının sürətlənməsi iki ölkəni dəhliz ölkəsi olmaqdan çıxarıb ticarətin həqiqi mərkəzlərinə çevirə bilər, xarici investorlar üçün daha cəlbedici istehsal və paylama mühiti yaradarkən, aşağı düşən daşıma xərcləri ilə yerli məhsulların qlobal bazarlardakı rəqabət qabiliyyətini artıracaq. Sadələşdirilmiş gömrük xətti, "tək pəncərə", e-TIR kimi ortaq gömrük sistemləri və rəqəmsal keçid texnologiyaları ilə ticarətin axını həm sadələşəcək, həm də daha sürətli və təhlükəsiz olacaq.

Enerji daşımaları baxımından Orta Dəhliz Xəzərin zəngin yeraltı resurslarını Türkiyə vasitəsilə Avropaya çatdıran həyat damarlarından biri olmaq potensialına malikdir. Bu proses Türkiyənin enerji mərkəzi olma hədəfini dəstəkləyərkən, Azərbaycanın neft və qaz ixracına yeni nəfəs gətirəcək. Mövcud boru kəmərlərinə əlavə olaraq yeni enerji və elektrik layihələri üçün geniş imkanlar yaranacaq və bərpa olunan enerji üçün yeni qapılar açılacaq.

***- TÜİB-in töhfələrini necə qiymətləndirirsiniz?***

Türkiyə-Azərbaycan İş Adamları və Sənayeçiləri İctimai Birliyi (TÜİB) iki qardaş ölkə arasındakı iqtisadi, ticarət və sosial əlaqələrin gücləndirilməsində strateji rol oynayan fəal bir qeyri-hökumət təşkilatıdır. Türkiyə ilə Azərbaycan arasındakı iqtisadi münasibətlər "bir millət, iki dövlət" anlayışının iqtisadi sahədəki təzahürü olaraq son illərdə ticarət və investisiya sahələrində güclü inkişaf tempi qazanmışdır. Azərbaycanla həm ixracatımız, həm də idxalatımız artma tendensiyasını davam etdirir. 2024-cü ildə Azərbaycana ixracatımızın həcmi 3,081 milyard ABŞ dollarına çatmışdır.

Bu baxımdan, iki ölkə arasındakı həm iqtisadi, həm də sosial əlaqələrin inkişafı və dərinləşməsində TÜİB-in də mühüm töhfələri vardır. Birliyin fəaliyyəti Türkiyə–Azərbaycan münasibətlərinin inkişafına xidmət edir, iş dünyasında dayanıqlı əməkdaşlıqlar yaradır və hər iki ölkənin iqtisadi inkişafına əhəmiyyətli dəstək verir. Buna görə də TÜİB yalnız bir iş adamları birliyi deyil, Türk dünyasının iqtisadi həmrəyliyini təmsil edən bir qurumdur.





"TÜİB, türk və azərbaycanlı iş adamlarını ortaq bir platformda bir araya gətirərək qarşılıqlı investisiya imkanlarının dəyərləndirilməsini təmin edir və ticarət əlaqələrində meydana çıxan problemlərin həllində yol göstərən bir rol oynayır. TÜİB-in təşkil etdiyi iclaslar, forumlar, sərgilər və əməkdaşlıq proqramları həm mövcud iqtisadi bağları dərinləşdirir, həm də yeni iş sahələrinin yaranmasına zəmin hazırlayır."

TÜİB, türk və azərbaycanlı iş adamlarını ortaq bir platformda bir araya gətirərək qarşılıqlı investisiya imkanlarının dəyərləndirilməsini təmin edir və ticarət əlaqələrində meydana çıxan problemlərin həllində yol göstərən bir rol oynayır. TÜİB-in təşkil etdiyi iclaslar, forumlar, sərgilər və əməkdaşlıq proqramları həm mövcud iqtisadi bağları dərinləşdirir, həm də yeni iş sahələrinin yaranmasına zəmin hazırlayır.

Azərbaycanın regional enerji mərkəzi kimi yüksələn mövqeyi və Türkiyənin strateji geosiyasi üstünlüyü nəzərə alındıqda, TÜİB-in rolu daha da əhəmiyyət kəsb edir. TÜİB, bu iki ölkənin potensialını birləşdirərək bölgədə iqtisadi sabitliyin təmin edilməsinə, ortaq layihələrdə sinerji yaradılmasına və qlobal bazarlarda daha güclü mövqenin əldə edilməsinə töhfə verir.

Bundan əlavə, TÜİB yalnız iqtisadi münasibətlərlə məhdudlaşmayaraq, mədəni və sosial bağların gücləndirilməsinə yönələn fəaliyyətlər də həyata keçirir. Bu yönü ilə TÜİB, iki ölkə arasındakı dostluğun və qardaşlığın iş dünyası vasitəsilə möhkəmlənməsinə xidmət edən bir körpü rolunu da daşıyır.

TÜİB, Yatırım Forumunu korporativ bir struktura çevirərək Azərbaycan ilə ticarət əlaqələrimizdə vacib bir sahədə güclü alternativ təqdim edir. Buna görə də TÜİB-i 15 milyard dollarlıq ticarət həcmi hədəfimizə doğru gedən yolda iş dünyamızın dinamizmini daşıyan tərəfdaşlardan biri kimi qiymətləndiririk.





**BİROL AKGÜN**

Türkiyə Respublikasının
Azərbaycan Respublikasındakı
fövqəladə və səlahiyyətli səfiri

## PROF. DR. BİROL AKGÜN:

# "TÜRKİYƏ VƏ AZƏRBAYCAN İKİ QARDAŞ DÖVLƏTDİR VƏ BÜTÜN SAHƏLƏRDƏ MÜNASİBƏTLƏRİMİZİN TƏMƏLİNDƏ "BİR MİLLƏT, İKİ DÖVLƏT" PRİNSİPİ DAYANIR"

HAZIRDA AZƏRBAYCANDA FƏALİYYƏT GÖSTƏRƏN TÜRK KAPİTALLI ŞİRKƏTLƏRİN SAYI BEŞ MİNƏ YAXINLAŞMIŞDIR. ÜMUMİ İNVESTİSİYA HƏCMİ 17 MİLYARD ABŞ DOLLARINI AŞAN TÜRKİYƏ, EYNİ ZAMANDA, AZƏRBAYCANIN ƏN İRİ XARİCİ İNVESTORLARI SIRASINDA YER ALIR. BU ARTAN MARAQ TƏSADÜFİ DEYİL; ORTAQ DİLİMİZ, MƏDƏNİYYƏTİMİZ VƏ STRATEJİ BAXIŞIMIZLA YANAŞI, İŞGÜZAR YANAŞMALARIMIZDAKI YAXINLIQ DA QARŞILIQLI TİCARƏT VƏ İNVESTİSİYALARIN ARTMASINDA MÜHÜM ROL OYNAYIR.



***- Türkiyə-Azərbaycan münasibətləri bu gün "strateji müttəfiqlik" səviyyəsində xarakterizə olunur. Sizcə, bu güclü siyasi birlik yaxın perspektivdə iş dünyası və investisiyalar baxımından hansı konkret imkanları formalaşdıracaq?***

- Türkiyə və Azərbaycan iki qardaş dövlətdir və bütün sahələrdə münasibətlərimizin təməlində "Bir millət, iki dövlət" prinsipi dayanır. Bu gün Türkiyə Respublikasının Prezidenti cənab Rəcəb Tayyib Ərdoğan və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin uzaqgörən, strateji baxışa malik liderliyi və qarşılıqlı həmrəyliyi bizə ilham, motivasiya və güvən verir. Dildə, fikirdə və işdə birlik anlayışı iki ölkə arasında çoxşaxəli şəkildə daha da möhkəmlənməkdədir.

Məlum olduğu kimi, 2021-ci ildə imzalanmış Şuşa Bəyannaməsi Türkiyə-Azərbaycan müttəfiqlik münasibətlərinə yeni konseptual və strateji çərçivə qazandırmışdır. Bu sənəd yalnız diplomatik və təhlükəsizlik sahələri ilə məhdudlaşmır, eyni zamanda iqtisadi və ticarət əməkdaşlığı baxımından da güzclü zəmin yaradıb. Sözügedən müqavilə çərçivəsi investorlar üçün proqnozlaşdırıla bilən, etibarlı və uzunmüddətli planlaşdırma imkanları yaradır, qarşılıqlı kapital axınlarının sürətlənməsinə və birgə layihələrin daha asan reallaşdırılmasına şərait yaradır. Digər tərəfdən, Azərbaycan türk iş dünyası üçün təkcə istehlak bazarı deyil, həm də Orta Asiyaya və Xəzər hövzəsinə çıxışı olan strateji istehsal və paylama mərkəzinə çevrilməkdədir. Zəngəzur dəhlizinin açılması perspektivi ilə Orta Dəhliz marşrutunun əhəmiyyətinin daha da artması, eləcə də Türkiyə və Azərbaycanın bu istiqamətdə koordinasiyalı fəaliyyətləri regional ticarətdə hər iki ölkənin mövqelərini daha da gücləndirəcəkdir.

2021-ci ildə imzalanmış Şuşa Bəyannaməsi Türkiyə-Azərbaycan müttəfiqlik münasibətlərinə yeni konseptual və strateji çərçivə qazandırmışdır. Bu sənəd yalnız diplomatik və təhlükəsizlik sahələri ilə məhdudlaşmır, eyni zamanda iqtisadi və ticarət əməkdaşlığı baxımından da güzclü zəmin yaradıb. Sözügedən müqavilə çərçivəsi investorlar üçün proqnozlaşdırıla bilən, etibarlı və uzunmüddətli planlaşdırma imkanları yaradır, qarşılıqlı kapital axınlarının sürətlənməsinə və birgə layihələrin daha asan reallaşdırılmasına şərait yaradır. Digər tərəfdən, Azərbaycan türk iş dünyası üçün təkcə istehlak bazarı deyil, həm də Orta Asiyaya və Xəzər hövzəsinə çıxışı olan strateji istehsal və paylama mərkəzinə çevrilməkdədir.

***- Türk iş adamlarının Azərbaycandakı investisiya marağını necə qiymətləndirirsiniz? Yaxın dövrdə hansı sektorların daha çox ön plana çıxacağını gözləyirsiniz?***

- Hazırda Azərbaycanda fəaliyyət göstərən türk kapitallı şirkətlərin sayı beş minə yaxınlaşmışdır. Ümumi investisiya

**İşğaldan azad edilmiş bölgələrdə həyata keçirilən bərpa və inkişaf layihələri ilə müşahidə olunan sürətli dəyişiklik və transformasiyanı böyük məmnunluqla izləyirik. Türk şirkətləri infrastruktur, yaşayış, yol, tunel, hava limanı, enerji və ağıllı şəhər layihələri üzrə zəngin təcrübələri ilə bu prosesin təbii və güclü tərəfdaşlarıdır. Sahib olduqları texniki potensial, peşəkar təcrübə və Azərbaycanla möhkəm əlaqələri sayəsində hazırda bir çox türk şirkəti bu bölgələrdə fəal şəkildə fəaliyyət göstərir.**

həcmi 17 milyard ABŞ dollarını aşan Türkiyə, eyni zamanda, Azərbaycanın ən iri xarici investorları sırasında yer alır. Bu artan maraq təsadüfi deyil; ortaq dilimiz, mədəniyyətimiz və strateji baxışımızla yanaşı, işgüzar yanaşmalarımızdakı yaxınlıq da qarşılıqlı ticarət və investisiyaların artmasında mühüm rol oynayır. Gələcək dövrdə xüsusilə bərpa olunan enerji, tikinti və infrastruktur, kənd təsərrüfatı və qida sənayesi, səhiyyə, turizm, informasiya texnologiyaları və kosmik texnologiyalar, eləcə də müdafiə sənayesi kimi sahələrin daha çox önə çıxacağını proqnozlaşdırırıq. Qeyd etmək lazımdır ki, bu sahələr Azərbaycanın iqtisadiyyatın şaxələndirilməsi istiqamətində müəyyən etdiyi strateji hədəflərlə tam uyğunluq təşkil edir. Digər tərəfdən, Azərbaycanın qeyd olunan hədəflər istiqamətində həyata keçirdiyi infrastruktur investisiyaları və təşviq proqramları ilə türk investorları üçün ciddi imkanlar yaratdığını da qeyd etməyi məqsədəuyğun hesab edirəm.

***- İşğaldan azad edilmiş bölgələr hər iki ölkənin işgüzar dairələri üçün yeni investisiya və əməkdaşlıq imkanları təqdim edir. Bu bölgələrdə türk şirkətlərinin rolu və potensialına dair gözləntiləriniz nələrdir?***

- İşğaldan azad edilmiş bölgələrdə həyata keçirilən bərpa



və inkişaf layihələri ilə müşahidə olunan sürətli dəyişiklik və transformasiyanı böyük məmnunluqla izləyirik. Türk şirkətləri infrastruktur, yaşayış, yol, tunel, hava limanı, enerji və ağıllı şəhər layihələri üzrə zəngin təcrübələri ilə bu prosesin təbii və güclü tərəfdaşlarıdır. Sahib olduqları texniki potensial, peşəkar təcrübə və Azərbaycanla möhkəm əlaqələri sayəsində hazırda bir çox türk şirkəti bu bölgələrdə fəal şəkildə fəaliyyət göstərir.

Qarşıdakı dövrdə kənd təsərrüfatı, tekstil, qida emalı, logistika, turizm və bərpa olunan enerji sahələrində türk şirkətlərinin daha görünən olacağını gözləyirik. Bu baxımdan, Qarabağ bölgəsində yeni yaradılmış sənaye parklarına türk şirkətləri böyük maraq göstərir və istehsalyönümlü investisiyalarını artırırlar. Qarabağın uzunmüddətli perspektivdə təkcə Azərbaycanın deyil, bütövlükdə regionun rifahına töhfə verən cəlbedici bir mərkəzə çevriləcəyinə inanırıq.

***- Türkiyə-Azərbaycan İş Adamları və Sənayeçiləri İctimai Birliyi (TÜİB) kimi qurumların iki ölkənin iş dünyası arasında körpü rolunu necə qiymətləndirirsiniz? İş dünyasına vermək istədiyiniz xüsusi bir mesaj varmı?***

- TÜİB və oxşar iş dünyası təşkilatları dövlətlərarası möhkəm münasibətlərin real sektor və iqtisadi fəaliyyət müstəvisinə daşınmasında mühüm funksiyalar icra edir. Körpü rolunu yerinə yetirən bu platformalar vasitəsilə investorlar etibarlı tərəfdaşlarla bir araya gəlir, informasiyaya daha operativ şəkildə çıxış əldə edir və qarşılıqlı etimad mühiti daha da möhkəmlənir. İş dünyasına mesajım ondan ibarətdir ki, Türkiyə-Azərbaycan iqtisadi münasibətləri çərçivəsində hələ reallaşdırılmasını gözləyən çox böyük potensial mövcuddur. Ölkələrimiz arasındakı qardaşlıq hüququ iqtisadi sahədə daha güclü, sistemləşmiş və davamlı əməkdaşlıqlarla taclandırılmalıdır. Qlobal və regional prosesləri nəzərə alaraq uzunmüddətli perspektivdə düşünən, əlavə dəyər yaradan və yerli tərəfdaşlıqlara önəm verən hər bir təşəbbüs mütləq şəkildə qarşılığını tapacaqdır.

***- II Azərbaycan-Türkiyə İnvestisiya Forumu iki ölkənin iş dünyasını bir araya gətirən mühüm platforma kimi çıxış edir. Siz bu forumun Türkiyə-Azərbaycan iqtisadi münasibətlərinə hansı töhfələri verəcəyini gözləyirsiniz?***

- II Azərbaycan-Türkiyə İnvestisiya Forumunu təkcə tanışlıq və əlaqə qurma mühiti deyil, konkret layihələrin və strateji tərəfdaşlıqların formalaşdığı mühüm platforma kimi qiymətləndirirəm. Bu forum və oxşar təşəbbüslər vasitəsilə qarşılıqlı investisiya həcminin artmasını, birgə istehsalın ge-

Gələcək dövrdə xüsusilə bərpa olunan enerji, tikinti və infrastruktur, kənd təsərrüfatı və qida sənayesi, səhiyyə, turizm, informasiya texnologiyaları və kosmik texnologiyalar, eləcə də müdafiə sənayesi kimi sahələrin daha çox önə çıxacağını proqnozlaşdırırıq. Qeyd etmək lazımdır ki, bu sahələr Azərbaycanın iqtisadiyyatın şaxələndirilməsi istiqamətində müəyyən etdiyi strateji hədəflərlə tam uyğunluq təşkil edir. Digər tərəfdən, Azərbaycanın qeyd olunan hədəflər istiqamətində həyata keçirdiyi infrastruktur investisiyaları və təşviq proqramları ilə türk investorları üçün ciddi imkanlar yaratdığını da qeyd etməyi məqsədəuyğun hesab edirəm.






TÜİB və oxşar iş dünyası təşkilatları dövlətlərarası möhkəm münasibətlərin real sektor və iqtisadi fəaliyyət müstəvisinə daşınmasında mühüm funksiyalar icra edir. Körpü rolunu yerinə yetirən bu platformalar vasitəsilə investorlar etibarlı tərəfdaşlarla bir araya gəlir, informasiyaya daha operativ şəkildə çıxış əldə edir və qarşılıqlı etimad mühiti daha da möhkəmlənir. İş dünyasına mesajım ondan ibarətdir ki, Türkiyə-Azərbaycan iqtisadi münasibətləri çərçivəsində hələ reallaşdırılmasını gözləyən çox böyük potensial mövcuddur. Ölkələrimiz arasındakı qardaşlıq hüququ iqtisadi sahədə daha güclü, sistemləşmiş və davamlı əməkdaşlıqlarla taclandırılmalıdır. Qlobal və regional prosesləri nəzərə alaraq uzunmüddətli perspektivdə düşünən, əlavə dəyər yaradan və yerli tərəfdaşlıqlara önəm verən hər bir təşəbbüs mütləq şəkildə qarşılığını tapacaqdır.

nişlənməsini və üçüncü ölkələrə yönəlik əməkdaşlıqların güclənməsini gözləyirik. Bütün bunlar iqtisadi münasibətlərimizin daha səmərəli və dərin məzmunlu xarakter almasına xidmət edəcəkdir. Eyni zamanda, Forum çərçivəsində müxtəlif mövzular üzrə keçiriləcək panel müzakirələrində irəli sürüləcək təhlil və tövsiyələrin iqtisadi əməkdaşlığımızın gələcək yol xəritəsinin müəyyənləşdirilməsində aidiyyəti qurumlar tərəfindən nəzərə alınacağına inanırıq. Bu baxımdan Forumun nəticələrinin xüsusi əhəmiyyət daşıdığı qənaətindəyəm.

***- Bunun kimi beynəlxalq investisiya forumlarının türk investorlarının Azərbaycan bazarına olan etimadının artırılmasında rolunu necə qiymətləndirirsiniz?***

- Beynəlxalq investisiya forumları, investorların etimadının təmin edilməsində çox önəmli rol oynayır. Belə forumlar, dövlət orqanları ilə özəl sektor arasında birbaşa və şəffaf dialoqun qurulmasına imkan yaradır. Xüsusilə investisiya qanunvericiliyi, təşviq mexanizmləri və prioritet sektorlar haqqında verilən ətraflı məlumatlar, iş dünyasının qərar qəbul etmə proseslərini sürətləndirir. Bununla yanaşı, uğurlu nümunələrin və yaxşı təcrübələrin paylaşılması, potensial investorlar üçün motivasiyaedici rol oynayır. Azərbaycanın son illərdə rəqəmsallaşma, gömrük əməliyyatları, vergi sistemi və investisiya təşviqləri sahələrində atdığı addımlar, bu forumlar vasitəsilə daha geniş auditoriyaya çatdırılır və ümumi etimad mühitinin möhkəmlənməsinə töhfə verir.

***- Fürsətdən istifadə edərək foruma qatılacaq iş adamlarına, investorlar və gənc sahibkarlara vermək istədiyiniz xüsusi mesaj varmı?***

- Foruma qatılan bütün iş adamlarımıza və investorlarımıza xüsusilə vurğulamaq istəyirəm ki, Azərbaycan təkcə bu günün deyil, eyni zamanda gələcəyin geniş imkanlarını özündə cəmləşdirən bir ölkədir. Gənc sahibkarlara isə daha cəsarətli olmalarını, texnologiya və innovasiya yönümlü düşünməyi tövsiyə edirəm. Türkiyə və Azərbaycanın ortaq strateji vizyonu birlikdə istehsal etmək, birlikdə inkişaf etmək və birlikdə dəyər yaratmaq prinsiplərinə əsaslanır. Dövlətlərimiz arasında mövcud olan güclü həmrəylik və qarşılıqlı etimad iş dünyasının təşəbbüslərini və investorların fəaliyyətini dəstəkləyən ən möhkəm zəmanət rolunu oynayır.

Bu seçkin platformanın ənənəvi bir hala gəlməsini, daimi əməkdaşlıqlara və uzunmüddətli tərəfdaşlıqlara səbəb olmasını arzulayıram.



# VÜSAL QASIMLI: “İQTİSADİ İNKİŞAF İNTELLEKTUAL POTENSİALA BAĞLIDIR"

## İQTİSADİ İSLAHATLARIN TƏHLİLİ VƏ KOMMUNİKASİYA MƏRKƏZİNİN GÖRDÜYÜ İŞLƏRLƏ BAĞLI SUALLARIMIZI MƏRKƏZİN İCRAÇI DİREKTORU, İQTİSAD ELMLƏRİ DOKTORU, PROFESSOR VÜSAL QASIMLI CAVABLANDIRIR:

***- 2016-cı ildən rəhbərlik etdiyiniz İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin əsas missiyası və fəaliyyətinin prioritet istiqamətləri hansılardır?***

- Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 20 aprel tarixli 879 nömrəli Fərmanı ilə ölkədə aparılan iqtisadi islahatların əhatə dairəsinin genişləndirilməsini və bu sahədə işlərin səmərəli əlaqələndirilməsini təmin etmək məqsədilə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi (İİTKM) yaradılıb. Sözügedən Fərmanla Mərkəzin nizamnaməsi təsdiq edilib, missiyası və prioritet istiqamətləri müəyyənləşdirilib. Prezidentin bu Fərmanında vurğulanır ki, mövcud qlobal iqtisadi şərait aparılan iqtisadi islahatları daha da genişləndirməklə onların müntəzəmliyinin təmin edilməsini, sahibkarlıq subyektləri tərəfindən mütərəqqi elmi-texniki çağırışlardan, stimullaşdırıcı mexanizmlərdən və innovasiyalardan istifadə etməklə yeni konseptual yanaşmaların tətbiqini, mövcud iqtisadi potensialdan və əlverişli investisiya mühitindən daha səmərəli istifadəni və bu sahədə təşviqat və ictimai iştirakçılıq sistemlərinin tətbiqini zəruri edir. Mərkəz də məhz dövlət başçısı tərəfindən müəyyənləşdirilən prioritet istiqamətlər üzrə fəaliyyət göstərir, ölkənin dayanıqlı iqtisadi inkişafının təmin edilməsi istiqamətində makro və mikroiqtisadi təhlil və tədqiqatlar aparır, analitik məlumatlar əsasında iqtisadi islahatların həyata keçirilməsi üçün təkliflər hazırlayır, orta və uzunmüddətli dövr üçün proqnozlar verir, iqtisadiyyatın müxtəlif sahələrində nailiyyətlərimizin təbliğini təşkil edir. Eyni zamanda, Mərkəz Prezidentin tapşırıqlarına uyğun olaraq, strategiyaların və dövlət proqramlarının icrasının monitorinq və qiymətləndirməsini həyata keçirir. Mərkəzin 2016-cı ildən bu günə kimi olan fəaliyyətinə nəzər salanda əminlikdə deyə bilərik ki, missiyasını uğurla icra edir. Sadəcə bir faktı qeyd edim ki, 2024-cü ildə Azərbaycan Respublikası Prezidentinin Fərman və Sərəncamları ilə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinə verilən tapşırıqların orta tamamlama faizi - 97,4 faiz olub.

Yeri gəlmişkən qeyd edim ki, İİTKM-ə bu il qlobal miqyasda mükafatların verilməsi də təsadüfi deyil. Belə ki, İİTKM cari ilin on ayı ərzində beynəlxalq müsabiqələrdə iştirak edərək ümumilikdə 10 nominasiyada və 12 kateqoriyada qalib olub. ABŞ, Böyük Britaniya, Birləşmiş Ərəb Əmirlikləri və Asiya-Sakit Okean regionunun nüfuzlu qurumları tərəfindən İİTKM-in uğurları tanınıb və yüksək qiymətləndirilib. Belə ki, Mərkəz Böyük Britaniyada yerləşən “Global Brands Magazine” jurnalının “Global Brand Awards 2025” beynəlxalq müsabiqəsində “Texnologiya” nominasiyası üzrə ali mükafata layiq görülüb. Bu nominasiya üzrə Mərkəzə “Dataəsaslı idarəetmədə mükəmməllik” mükafatı verilib. Həmçinin İİTKM ABŞ-nin “World Economic Magazine Inc.” təşkilatının keçirdiyi “World Economic Magazine Awards 2025” beynəlxalq müsabiqəsində “Texnologiya” nominasiyası üzrə ali mükafata layiq görülüb. Nüfuzlu mükafat “Ağıllı monitorinq və qiymətləndirmə sahəsində mükəmməllik mükafatı - Azərbaycan 2025 (Excellence Award for Smart Monitoring and Evaluation – Azerbaijan 2025)” adlanır. Sözügedən mükafatların təqdim olunmasında İİTKM-in monitorinq və qiymətləndirmə sahəsində rəqəmsal platforma yaratması, eyni zamanda bu çərçivədə layihə idarəetməsi, data analitikası, coğrafi intellekt, videomüşahidə və süni intellekt imkanlarından istifadə etməsi əsas götürülüb. Bu siyahını genişləndirmək olar. Bir məqamı qeyd edərək fikrimi yekunlaşdırmaq istəyirəm ki, bu mükafatlar əsasən dövlət xidmətləri, texnologiya və innovasiya kateqoriyaları üzrə İİTKM-in həyata keçirdiyi intellektual layihələrə görə verilib.

***- Çox mühüm məqama toxundunuz. İİTKM-in həyata keçirdiyi monitorinq və qiymətləndirmə fəaliyyəti dövlət proqramlarının icrasına necə təsir edir?***

- Hazırda Mərkəz tərəfindən ölkənin sosial-iqtisadi həyatında mühüm rol oynayan bir sıra sənədlər, o cümlədən “Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”, “Azərbaycan Respublikası-

nın işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı", "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı", "Su ehtiyatlarından səmərəli istifadəyə dair Milli Strategiya", "Azərbaycan Respublikasının 2025–2028-ci illər üçün süni intellekt Strategiyası" daxil olmaqla ölkə əhəmiyyətli sənədlərin monitorinq və qiymətləndirməsi aparılır.

Mərkəz tərəfindən davamlı olaraq monitorinqlərin nəticələri barədə hesabatlar və analitik sənədlər hazırlanır. Bu sənədlər yeni siyasət qərarlarının qəbul edilməsində mühüm rol oynayır. Təkcə 2024-cü il ərzində monitorinq və qiymətləndirmə nəticələri ilə bağlı 13 hesabat hazırlanıb. Mərkəz tərəfindən monitorinq və qiymətləndirmə işi tamamilə qlobal standartlara uyğun, rəqəmsal platformalar vasitəsilə aparılır. Bu, dövlət proqramlarının icra nəticələri barədə real vaxt rejimində məlumatların əldə olunması, dövlət qurumları arasında kommunikasiya və koordinasiyanın vahid platforma əsasında aparılmasına imkan yaradır. Bu il ilk dəfə olaraq qabaqcıl beynəlxalq metodologiyalar üzrə dövlət proqramlarının səmərəlilik, uyğunluq və effektivlik kimi meyarlar əsasında qiymətləndirilməsi həyata keçiriləcək. Bu məqsədlə "Layihə idarəetməsi" modulu istifadəyə verilib.

***- "Layihə idarəetməsi" modulu hansı funksiyaları yerinə yetirir?***

- "Layihə idarəetməsi" modulu dövlət proqramlarının icrasını sistemli şəkildə izləmək və qiymətləndirmək üçün İİTKM tərəfindən hazırlanmış mühüm bir innovativ təşəbbüsdür. Bu modul beynəlxalq layihə idarəçiliyi metodologiyalarına əsaslanır və həm ayrı-ayrılıqda layihələrin, həm də ümumi strategiya və ya dövlət proqramlarının maliyyə və fiziki tərəqqisini real vaxt rejimində izləməyə imkan yaradır.

Qeyd edək ki, "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyasının monitorinq və qiymətləndirmə Portalı", "İşğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışa dair Dövlət Proqramının icrasına nəzarət və hesabatlılıq Portalı" və "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın icrasının monitorinqi və hesabatlılıq modulu" elektron portallarında artıq modulun tətbiqinə başlanılıb.

Modul dövlət proqramlarında nəzərdə tutulan layihələrin hazırlıq və planlaşdırma, icra və başa çatdırılma mərhələlərində monitorinqinə, eyni zamanda risklərin effektiv idarə edilməsinə, layihələrin və ümumi proqramın beynəlxalq kriteriyalar əsasında qiymətləndirilməsinə texnoloji dəstək verir.

Monitorinq və qiymətləndirmədə layihələr üzrə tətbiq olunan bu innovativ yenilik proqram idarəetməsinin modernləşdirilməsinə və daha səmərəli həyata keçirilməsinə, qərar qəbul etmədə effektivliyin artırılmasına mühüm töhfə verəcək.

***- "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" çərçivəsində həyata keçirilən işlər barədə məlumat verə bilərsinizmi?***

- İlk olaraq onu qeyd edim ki, Mərkəz tərəfindən I Dövlət Proqramının monitorinq və qiymətləndirilməsi aparılır. Böyük Qayıdışa dair I Dövlət Proqramının icrasıyla əlaqədar olaraq, 2020-2024-cü illərdə dövlət büdcəsindən ayrılmış vəsait 17,6 milyard manat təşkil edib. Eyni zamanda, 2025-ci il üzrə dövlət büdcəsində nəzərdə tutulmuş dövlət əsaslı vəsait qoyuluşu 4,3 milyard manat olub. Bununla yanaşı, 2026-2030-cu illər üzrə dövlət büdcəsindən 16,7 milyard manat vəsait ayrılması proqnozlaşdırılır. I Dövlət Proqramı çərçivəsində icra edilmiş mühüm tədbirlərə nəzər yetirsək, ilkin olaraq onu qeyd edə bilərəm ki, 2025-ci ilin 1 noyabr tarixinədək 230 min hektardan artıq ərazi minalardan və partlamamış hərbi sursatlardan təmizlənib, 8 şəhərin Baş planı, 10 qəsəbə və 84 kəndin şəhərsalma əsaslandırılması təsdiq edilib, 20 min nəfərdən artıq keçmiş məcburi köçkün öz doğma yurd-yuvalarına köçürülüb. Ümumilikdə,

**MONİTORİNQ VƏ QİYMƏTLƏNDİRMƏ**
PORTALI



BU MODUL BEYNƏLXALQ LAYİHƏ İDARƏÇİLİYİ METODOLOGİYALARINA ƏSASLANIR VƏ HƏM AYRI-AYRILIQDA LAYİHƏLƏRİN, HƏM DƏ ÜMUMİ STRATEGİYA VƏ YA DÖVLƏT PROQRAMLARININ MALİYYƏ VƏ FİZİKİ TƏRƏQQİSİNİ REAL VAXT REJİMİNDƏ İZLƏMƏYƏ İMKAN YARADIR.




işğaldan azad edilmiş ərazilərdə 62 mindən çox insan yaşayır.

Azad edilmiş ərazilərin ölkə iqtisadiyyatına reinteqrasiyası kontekstində müasir nəqliyyat-yol infrastrukturunun formalaşdırılması, bölgənin tranzit imkanlarının səmərəli istifadəsi, əhalinin tələbatının ödənilməsi və bu infrastrukturun sosial-iqtisadi inkişafa göstərdiyi müsbət təsirlər xüsusi vurğulanmalıdır. Bu çərçivədə 3 beynəlxalq hava limanı fəaliyyətə başlayıb, ümumi uzunluğu 3 501,6 kilometr olan avtomobil yollarının tikintisini əhatə edən 60 layihənin 16-sı tam, 1-i isə qismən yerinə yetirilib. Ağdam Dəmir Yolu və Avtovağzal Kompleksi istifadəyə verilib.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları bərpaolunan enerji mənbələri ilə diqqət çəkir. Təsadüfi deyil ki, cənab Prezidentin azad edilmiş ərazilər və yaşayış sahələri ilə bağlı müəyyənləşdirdiyi iqtisadi inkişaf kursunda həmin iqtisadi ərazilərin "yaşıl enerji" zonasına çevrilməsi əsas istiqamətlərdən biri hesab olunur. Ərazilərdə enerji səmərəli və ekoloji təmiz texnologiyaların tətbiqi istiqamətində 38 su elektrik stansiyası istismara verilib. Ərazilərin su təchizatı magistral sisteminin qurulması istiqamətində 4 su anbarı istismara verilib.

Azad edilmiş ərazilərdə iqtisadiyyatın yenidən qurulması və inkişafı ilə iqtisadi canlanmanın yaradılması, iqtisadi aktivliyin təşviqi üçün əlverişli biznes mühitinin formalaşdırılması istiqamətində əhəmiyyətli işlər aparılır. 2 sənaye parkı - Ağdam Sənaye Parkı və Araz Vadisi İqtisadi Zonası Sənaye Parkı fəaliyyətə başlayıb və hər iki sənaye parkı üzrə 50 müəssisə rezident, 7 müəssisə isə qeyri-rezident kimi qeydiyyata alınıb. Ümumi dəyəri 454 milyon manat olan layihələrin icrası çərçivəsində 185 milyon manat həcmində investisiya yatırılıb ki, fəaliyyətə başlamış rezidentlər tərəfindən 949,4 milyon manat məbləğində məhsul istehsal edilib. Ağdam Sənaye Parkı rezidentləri tərəfindən istehsal olunmuş məhsulların 39,5 milyon manatlıq hissəsi isə ixrac edilib. Ümumilikdə, hər iki sənaye parkı üzrə 1 057 yeni iş yeri yaradılıb.

***- Ölkənin iqtisadi potensialının reallaşdırılmasında İİTKM hansı tədqiqatlar aparır?***

- İİTKM hazırda təkcə Azərbaycanı deyil, həm də Yaxın Şərq və Mərkəzi Asiyanı Böyük iyirmiliyin və Böyük yeddiliyin beyin mərkəzləri platformalarında – T20 və T7-də uğurla təmsil edir. Mərkəzin tərkibində fəaliyyət göstərən "EconLAB" laboratoriyası Azərbaycan iqtisadiyyatının fundamental təhlili üçün əsas iqtisadi-riyazi modellərdən istifadə edir. Burada BVF, Dünya Bankı və İƏİT-in dəstəyi ilə qurulan Xərclər-Buraxılış, Maliyyə Proqramlaşdırılması, Dinamik Stoxastik Ümumi Tarazlıq (DSGE), ORANI, mikrosimulyasiya, qravitasiya və Kompleks Adaptiv Gözləntilər Modeli (CAEM) iqtisadi siyasətin formalaşdırılması və qərar qəbuletmə prosesini dolğun məlumatlarla təmin edir. Bu modellər makro, mezo və mikro səviyyədə iqtisadi təhlillərin aparılmasında mühüm rol oynayır. Şübhəsiz ki, Mərkəz bu imkanlarından istifadə edərək işğaldan azad olunmuş ərazilərin iqtisadi potensialının reallaşdırılması ilə bağlı da tədqiqatlar aparır. 2024-cü ildə İİTKM tərəfindən "Qarabağ və Şərqi Zəngəzura investisiya" (Invest in Karabakh and Eastern Zangezur) mövzusunda xüsusi buraxılış hazırlanıb. 2025-ci ildə isə tarixi Zəfərin 5 illiyinə həsr olunmuş "Invest in Karabakh and Eastern Zangezur" mövzusunda 2-ci xüsusi buraxılışı dərc edilib. İngilis dilində hazırlanan icmalda Qarabağ və Şərqi Zəngəzurda aparılan bərpa və quruculuq işləri, regionun kənd təsərrüfatı, sənaye, enerji və turizm sahələrindəki investisiya imkanları barədə yerli və xarici investorlara ətraflı məlumat verilir.

Mərkəz tərəfindən uğurla icra edilən monitorinq və qiymətləndirmə fəaliyyəti işğaldan azad edilmiş ərazilərin iqtisadi potensialının reallaşdırılmasında, o cümlədən Dövlət Proqramının effektivliyi və səmərəliliyinin ölçülməsi və optimallaşdırılmasında yüksək əhəmiyyətə malikdir. Nəticəyönümlü qərarların verilməsi üzrə dünya praktikasına və elmə əsaslanan tövsiyələrin formalaşdırılması, icra fəaliyyətləri üzrə müxtəlif təhlillər (xüsusilə, iqtisadi və sosial istiqamətlərdə) apararaq effektivlik və təsirin ölçülməsi, bu fəaliyyətlərin dövlət proqramlarının prioritet istiqamətləri və məqsədlərinə uyğunluğunun yoxlanılması, dövlət büdcəsi və digər resursların daha səmərəli istifadəsi, hesabatlılıq üzrə şəffaflıq və obyektivliyin təmin olunması, dövlət proqramları çərçivəsində icraçı qurumlar arasında əlaqələndirmə, koordinasiya və kommunikasiyanın təşkili, xüsusilə risklərin və çətinliklərin vaxtında aşkarlanaraq həlli istiqamətində müvafiq addımların atılması işğaldan azad edilmiş ərazilərin iqtisadi potensialının reallaşdırılmasında Mərkəzin əsas rollarından hesab oluna bilər. Beləliklə, apardığımız monitorinq və qiymətləndirmə dövlət proqramlarının obyektiv, şəffaf və effektiv icrasının təmin edilməsi, risklərin və çətinliklərin vaxtında aşkarlanaraq düzəlişlərə imkan yaradılması, eləcə də investisiya mühitinin yaxşılaşdırılaraq dayanıqlı inkişafın dəstəklənməsi baxımından yüksək əhəmiyyətə malikdir.

***- İİTKM tərəfindən hazırlanmış "Türk iqtisadi icmalı" regional iqtisadi əməkdaşlığa töhfə verən önəmli bir təşəbbüsdür. Sizcə Türk dövlətləri arasında iqtisadi əməkdaşlığın gücləndirilməsi üçün hansı imkanlar mövcuddur?***

- İlk olaraq onu nəzərə çatdırım ki, İİTKM-in tabeliyində Türk Dünyası Araşdırmalar Mərkəzi fəaliyyət göstərir. Məhz

Mərkəzin tabeliyində belə bir qurum yaratmaqda məqsəd qardaş ölkələrlə iqtisadi əməkdaşlığın genişlənməsinə, "Türk Dünyasına Baxış-2040" və "TDT-nin 2022-2026-cı illər üzrə Strategiyası"nda nəzərdə tutulan hədəflərə töhfə verməkdir. Mərkəzimiz "Türk dövlətləri iqtisadiyyatı" adlı kitab hazırlayıb və Türkiyədə çap etdirib. Bununla yanaşı, Türk Dövlətləri Təşkilatı (TDT) ilə birlikdə ildə dörd dəfə səkkiz dildə "Türk iqtisadi icmalı"nı nəşr edərək kommunikasiyasını həyata keçiririk.

Mərkəzimizdə Türk dövlətləri ilə bağlı aparılan təhlillər göstərir ki, 2024-cü ildə bu ölkələr 2,11 trilyon ABŞ dolları ÜDM ilə qlobal iqtisadiyyatda 1,8%-lik paya sahib olub, əhalisi isə 178,8 milyon nəfər ilə qlobal əhalinin 2,8%-ni təşkil edib. Bu göstəricilər Türk dövlətlərinin həm iqtisadi, həm də demoqrafik baxımdan mühüm yer tutduğuna dəlalət edir. 2024-cü ildə Türk dövlətləri 3,2%-lik qlobal artım tempi ilə müqayisədə 5,2% ÜDM artımı ilə daha sürətli inkişaf nümayiş etdirib. 2024-cü ildə Türk dövlətlərinin ümumi ticarət dövriyyəsi 1,17 trilyon ABŞ dolları təşkil edib ki, bu da 33 trilyon ABŞ dolları həcmində olan qlobal ticarət dövriyyəsinin təxminən 3,5%-nə bərabərdir.

Bu göstəricilər TDT çərçivəsində iqtisadi əməkdaşlığın sürətlə inkişaf etdiyinin sübutudur. Lakin ticarətdə disbalanslar, fiskal dayanıqlılıq və iqtisadiyyatın sektoral asılılığının azaldılması kimi çağırışlar mövcuddur. Bu baxımdan, gələcək dövrdə daha balanslı iqtisadi strukturun yaradılması, rəqəmsal iqtisadiyyat və yaşıl enerji sahəsində əməkdaşlığın genişləndirilməsi, eləcə də birgə investisiya fondlarının yaradılması Türk dünyası iqtisadi inteqrasiyasını yeni mərhələyə keçirə bilər.

Mərkəzimiz Türk dünyasında inteqrasiya proseslərinə öz töhfəsini verməyə çalışır. Bu yaxınlarda tərəfdaşlığımızla Bakıda "II Türk dövlətləri ticarət və investisiya əməkdaşlıq forumu və sərgisi"nin keçirilməsi buna əyani nümunədir. Forumla birgə təşkil olunan sərgi çərçivəsində 10 ölkədən 35-ə yaxın sahə üzrə, o cümlədən ticarət, enerji, yaşıl iqtisadiyyat, turizm, rəqəmsallaşma və hətta kosmik tədqiqatlara qədər məhsullar və qabaqcıl texnologiyalar nümayiş etdirildi.

Bununla yanaşı, İİTKM Türk İnvestisiya Fondu ilə tərəfdaşlıq çərçivəsində "Turkic States: Rising Investment Powerhouses" (Türk Dövlətləri: Yeni İnvestisiya Məkanı) adlı beynəlxalq kitab layihəsinə start verib. Layihə çərçivəsində dünyanın aparıcı beyin mərkəzlərindən alimlər və tədqiqatçılar müəllif kimi dəvət olunur. İngilis dilində hazırlanacaq kitab Türk dövlətlərində iqtisadi transformasiya və artan investisiya imkanlarını əhatə edəcək. Kitabda investisiya mühiti, azad iqtisadi zonalar, yaşıl texnologiyalar, rəqəmsal transformasiya və transsərhəd infrastruktur layihələri kimi istiqamətlər üzrə dərin təhlillər aparılacaq. Bu kitab Türk dövlətlərinin investisiya cəlbediciliyini göstərən praktik tövsiyələr və nümunələrlə zəngin, strateji bir istinad mənbəyi rolunu oynayacaq.

Mərkəzimiz TDT-nin dəstəyi ilə "İnteraktiv geoiqtisadi xəritə" layihəsinə start verib. Yeni rəqəmsal platforma üzv dövlətlərin iqtisadi potensialını, coğrafi mövqelərini və investisiya imkanlarını əks etdirən vizual və interaktiv məlumat bazası təqdim edəcək. Xəritədə hər bir ölkənin ÜDM artımı, ticarət dövriyyəsi, investisiya axınları, dövlət büdcəsi göstəriciləri, nəqliyyat-logistika dəhlizləri, azad iqtisadi zonalar, maliyyə institutları və təbii resurslar üzrə göstəriciləri real vaxt rejimində vizual formatda təqdim olunacaq. "İnteraktiv geoiqtisadi xəritə" TDT-nin "Türk Dünyası – 2040 Vizyonu" sənədində müəyyən olunmuş regional inteqrasiya və məlumat əsaslı qərarvermə proseslərinə dəstək verən innovativ bir alət kimi çıxış edəcək.

***- Qeyri-hökumət təşkilatı olan TÜİB "Türk iqtisadi icmalı"nın təşviqi və təkmilləşdirilməsinə hansı töhfələri verə bilər və bu istiqamətdə mümkün əməkdaşlıq imkanlarını necə görürsünüz?***

- Mərkəzimiz hər zaman əməkdaşlığa açıq qurumdur. Qeyd etdiyim kimi, TDT ilə hazırladığımız 8 dildə nəşr olunan "Türk iqtisadi icmalı" bölgədə mühüm informasiya resursuna çevrilib. Bu istiqamətdə qeyri-hökumət təşkilatları, xüsusilə Türkiyə-Azərbaycan İş Adamları və Sənayeçiləri İctimai Birliyi (TÜİB) kimi peşəkar birliklərlə əməkdaşlıq icmalın təşviqi və təkmilləşdirilməsi baxımından olduqca əhəmiyyətlidir.

TÜİB-in biznes dairələri ilə sıx əlaqələri, Türk dünyasında sahibkarlıq mühitini yaxşı tanıması və həm Türkiyə, həm də Azərbaycan iş adamları arasında güclü şəbəkəsi icmalın

İİTKM-in tabeliyində Türk Dünyası Araşdırmalar Mərkəzi fəaliyyət göstərir. Məhz Mərkəzin tabeliyində belə bir qurum yaratmaqda məqsəd qardaş ölkələrlə iqtisadi əməkdaşlığın genişlənməsinə, "Türk Dünyasına Baxış-2040" və "TDT-nin 2022-2026-cı illər üzrə Strategiyası"nda nəzərdə tutulan hədəflərə töhfə verməkdir. Mərkəzimiz "Türk dövlətləri iqtisadiyyatı" adlı kitab hazırlayıb və Türkiyədə çap etdirib. Bununla yanaşı, Türk Dövlətləri Təşkilatı (TDT) ilə birlikdə ildə dörd dəfə səkkiz dildə "Türk iqtisadi icmalı"nı nəşr edərək kommunikasiyasını həyata keçiririk.

“Türk iqtisadi icmalı” əsas makroiqtisadi göstəriciləri təqdim edir. Lakin gələcəkdə bu məzmunu genişləndirmək üçün TÜİB-lə əməkdaşlıq çərçivəsində sahəvi təhlillərin dərinləşdirilməsi, praktik biznes nümunələrinin və regional layihələrin icmala əlavə edilməsi, vizual formatların tətbiqi planlaşdırıla bilər.




daha geniş auditoriyaya çatdırılmasına imkan yaradır bilər. Təşkilat həmçinin “Türk iqtisadi icmalı”nın təqdimatlarının təşkilində, ölkədaxili və xarici işgüzar platformalarda tanıdılmasında, eləcə də iş adamlarının praktiki ehtiyaclarını nəzərə alaraq icmalın struktur və format baxımından təkmilləşdirilməsi prosesində fəal iştirak edə bilər.

Mövcud formatda “Türk iqtisadi icmalı” əsas makroiqtisadi göstəriciləri (ÜDM, sənaye və kənd təsərrüfatı artımı, ixrac və idxal, investisiyalar, bank sektorunun aktivləri, dövlət büdcəsi gəlir və xərcləri) təqdim edir. Lakin gələcəkdə bu məzmunu genişləndirmək üçün TÜİB-lə əməkdaşlıq çərçivəsində sahəvi təhlillərin dərinləşdirilməsi (məsələn, KOB-ların rolu, investisiya təşviq mexanizmləri, yeni texnologiyaların tətbiqi və s.), praktik biznes nümunələrinin və regional layihələrin icmala əlavə edilməsi, vizual formatların tətbiqi planlaşdırıla bilər. Beləliklə, “Türk iqtisadi icmalı” yalnız bir statistik mənbə deyil, həm də strateji iqtisadi qərarların qəbulunda faydalı olan analitik və vizual bir platformaya çevrilə bilər.

***- “Azexport”, “Enterprise Azerbaijan” və digər innovativ layihələriniz sahibkarlığın inkişafına hansı yeniliklər təqdim edir?***

Mərkəzimizin “Azexport”, “Enterprise Azerbaijan”, Rəqəmsal Ticarət Qovşağı, “Bir Pəncərə” İxraca Dəstək Mərkəzi kimi innovativ layihələri sahibkarların xidmətindədir. Azərbaycanın ixrac coğrafiyasının genişlənməsinə xidmət edən “Azexport.az” portalının Türkiyə, Rusiya və Özbəkistanın “Trendyol”, “Ozon”, “Uzum” platformalarına inteqrasiyası reallaşdırılıb. Portalda virtual sərgi zalı və konfrans məkanı layihəsi davam etdirilir və “Metaverse”in imkanlarından istifadə olunur. Virtual reallıq vasitəsilə Azərbaycanda istehsal olunan məhsullar üçün yaradılan sərgi zalının genişləndirilməsi məqsədilə Özbəkistan, Qazaxıstan, Türkiyə və Azərbaycandan olan şirkətlər layihəyə cəlb edilir. Bundan başqa, “Azexport.az” portalı tərəfindən ixracatçılara sərbəst satış sertifikatı (Certificate of Free Sale) təqdim olunur.

Digər innovativ layihəmiz “Enterprise Azerbaijan” portalı da vahid innovasiya və startap məkanının yaradılması istiqamətində iş aparır. “Enterprise Azerbaijan” portalı tərəfindən regionumuzun ən böyük startap məktəbi olan “StartUp School” layihəsi həyata keçirilir. ABŞ-nin Nevada Universiteti, Almaniyanın Süni İntellekt Araşdırma Mərkəzi ilə birgə reallaşdırılan layihəyə dünyanın müxtəlif ölkələrindən startaplar müraciət edir.

Rəqəmsal Ticarət Qovşağının genişləndirilməsi üzrə isə modernləşdirmə strategiyasına uyğun olaraq dövlət-özəl tərəfdaşlığı çərçivəsində yeni Yol Xəritəsi hazırlanıb. Yeni Yol Xəritəsinə əsasən hazırlanan “m-residency.az” portalında Azərbaycan və ingilis dilində qeyri-rezidentləri maraqlandıran məlumatlar yerləşdirilib.

***- Azərbaycanın iqtisadi inkişaf strategiyasında son illər hansı əsas istiqamətlər formalaşıb və 2026-cı ildən sonrakı dövr üçün prioritetlər nələrdir?***

- Prezident İlham Əliyev tərəfindən 2025-ci ilin 30 may tarixində imzalanan Sərəncama əsasən, Nazirlər Kabinetinə “Azərbaycan Respublikasının 2027–2030-cu illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nın və “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair II Dövlət Proqramı”nın hazırlanması tapşırılıb. Mərkəzimiz hökumətin əsas beyin mərkəzi olaraq bu prosesdə aktiv fəaliyyət göstərir və ona verilən tapşırıqları icra edir. İqtisadi inkişaf intellektual potensiala bağlıdır. Yeni strate-



giyanın və dövlət proqramının tərtibinə öz töhfəmizi veririk. Sualınızın ikinci hissəsinə gəldikdə isə, bunun cavabı çox genişdir. Qısa olaraq onu deyə bilərəm ki, qarşıdakı illərdə Azərbaycanın həm yaşıl enerji məkanına, həm nəqliyyat-logistika habına, həm də intellektual mərkəzə çevrilmək potensialı var.

Azərbaycan Respublikası "Xəzər-Qara dəniz-Avropa", "Azərbaycan-Türkiyə-Avropa", "Azərbaycan-Gürcüstan -Türkiyə-Avropa" və "Azərbaycan-Mərkəzi Asiya-Avropa" yaşıl enerji dəhlizlərinin yaradılması istiqamətində mühüm addımlar atır. "Xəzər-Qara dəniz-Avropa" yaşıl enerji dəhlizinin əsas resurs mənbəyi Xəzər dənizinin 157 GW-lıq nəhəng külək enerjisi potensialıdır. Azərbaycan bu potensialın işlənilməsi üçün artıq "Masdar" şirkəti ilə 6 GW, "Fortescue Future Industries" şirkəti ilə 10 GW, "ACWA Power" şirkəti ilə 1,5 GW həcmlərində külək enerjisi layihələri üzrə əməkdaşlıq sənədləri imzalayıb. Eyni zamanda, ölkəmiz "Azərbaycan-Mərkəzi Asiya-Avropa" enerji dəhlizinin əsas təşəbbüskarıdır. Azərbaycan, Qazaxıstan və Özbəkistan arasında yaradılacaq bu dəhlizin Mərkəzi Asiya ölkələrinin "Xəzər-Qara dəniz-Avropa" yaşıl enerji dəhlizinə qoşulmasına da imkan yaranacaq. Azərbaycandan keçəcək bu üç "yaşıl dəhliz" ölkəmizin müvafiq nəqliyyat-logistika infrastrukturuna (məsələn, dəmir yolu və avtomobil yolu boyunca elektrik kabeli, fiberoptik kabel və s.) uyğun yaradılacaq. Bu da imkan verir ki, biz "yaşıl enerji"dən istifadə edərək data mərkəzləri və superkompüterlər yaradaq. Nəticədə ölkəmizdə icra olun yaşıl enerji layihələrdən əldə olunacaq enerji nəhəng süni intellekt superkompüterləri vasitəsilə məhsuldar gücə çevrilə bilər. Yəni superkompüterlər əslində süni intellekt fabrikləridir. Bu fabriklərdə süni intellekt tokenləri (rəqəmsal vahidlər) yaradılır və həmin tokenlər daha sonra tətbiq sahələrinə yönəldilir, problemləri həll edən süni intellekt həllərinə çevrilir. Məqsəd süni intellektin bütün dəyər zəncirində yer almaq, nəhəng məlumat mərkəzləri qurmaq və inkişaf etdirmək olmalıdır. İqtisadi diplomatiya ilə bir tərəfdən "yaşıl enerji" şirkətlərini ("Masdar", "Fortescue Future Industries", "ACWA Power"), digər tərəfdən isə data emalında maraqlı olan texnologiya şirkətlərini ( "Google", "Microsoft", "Amazon", "Huawei", "Apple Inc.", "NVIDIA" və s.) cəlb etmək faydalı olar.

Azərbaycan həm yaşıl enerji məkanı, həm nəqliyyat-logistika habı, həm də intellektual mərkəz kimi formalaşa bilər. Araşdırmamız göstərir ki, Azərbaycanın enerji və rəqəmsal potensialını birləşdirməklə ölkənin süni intellekt və yüksək texnologiyalar sahəsində regional mərkəzə çevrilməsi istiqamətində potensial böyükdür. Şübhəsiz ki, 2026-cı ildən sonrakı dövr üçün qeyd edilən məsələ prioritetimiz olacaq.

***- Sonda I Azərbaycan-Türkiyə İnvestisiya Forumu ilə bağlı fikirləriniz və bu ilki ikinci forumdan gözləntiləriniz nələrdir? Sizcə bu forumların keçirilməsinin ənənə halı almasının iqtisadi əməkdaşlıq baxımından strateji əhəmiyyəti nədir?***

- Azərbaycan–Türkiyə əlaqələri çoxşaxəlidir və siyasi, hərbi, iqtisadi, sosial sahələr də daxil olmaqla inkişaf edir. 2021-ci il iyunun 15-də imzalanan Şuşa Bəyannaməsi isə strateji məsələlərdə fəaliyyətimizin əlaqələndirilməsi baxımından müstəsna əhəmiyyətə malikdir. Beynəlxalq və regional müstəvidə ölkələrimizin əməkdaşlığı günü-gündən dərinləşir. Türk Dövlətləri Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı (ECO), D-8 və digər qurumlar çərçivəsində əlaqələndirilmiş addımlar atılır. Əlbəttə ki, Bakıda Ulu Öndər Heydər Əliyevin anadan olmasının və Türkiyə Cümhuriyyətinin yaradılmasının 100-cü ildönümünə həsr olunmuş Azərbaycan–Türkiyə İnvestisiya Forumunun keçirilməsini çox yüksək qiymətləndirirəm. Bu mühüm tədbirdə hər iki ölkədən dövlət qurumları və özəl sektoru təmsil edən 600-dən çox nümayəndə iştirak edib. Bu ənənənin davamı olaraq II Azərbaycan–Türkiyə İnvestisiya Forumunun təşkili təqdirəlayiqdir və biz bunu alqışlayırıq. Düşünürəm ki, iqtisadi əməkdaşlıq baxımından ölkələrimiz arasında investisiya qoyuluşunun artması da strateji əhəmiyyət daşıyır. Azərbaycan müstəqillik tarixində xarici ölkələr arasında ən çox investisiyanı Türkiyəyə yatırıb. Həmçinin, ölkəmizdə qeyri-neft-qaz sektoruna investisiya yatıran ölkələr arasında Türkiyə ilk sırada yer alır. Azərbaycanda Türkiyə şirkətlərinin fəaliyyəti üçün bütün şərait yaradılıb, hazırda işğaldan azad edilən ərazilərdə türk şirkətləri böyük layihələr icra edirlər. Onların ölkəmizin bütün regionlarında aktiv fəaliyyət göstərməsi və daha çox investisiya qoyması üçün imkanlar var. Bu baxımdan II Azərbaycan–Türkiyə İnvestisiya Forumunun keçirilməsi iqtisadi əməkdaşlığımızın daha da dərinləşməsinə töhfə verəcək.




Virtual reallıq vasitəsilə Azərbaycanda istehsal olunan məhsullar üçün yaradılan sərgi zalının genişləndirilməsi məqsədilə Özbəkistan, Qazaxıstan, Türkiyə və Azərbaycandan olan şirkətlər layihəyə cəlb edilir. Bundan başqa, "Azexport.az" portalı tərəfindən ixracatçılara sərbəst satış sertifikatı təqdim olunur.



ALİ AYBEY

Türkiyə Respublikası Əmək və Sosial Müdafiəsi Nazirliyi Xarici Əlaqələr və Avropa İttifaqı Baş İdarəsinin Rəisi

# ƏMƏK VƏ SOSİAL TƏMİNAT SAHƏLƏRİNDƏ TÜRKİYƏ-AZƏRBAYCAN MÜNASİBƏTLƏRİ: KÖKLÜ ƏMƏKDAŞLIĞIN TARİXİ İNKİŞAFI VƏ MÜASİR DİNAMİKASI

Türkiyə ilə Azərbaycan arasında mövcud olan müstəsna münasibətlər ortaq tarixə, mədəniyyətə və qardaşlıq bağlarına əsaslanan güclü əməkdaşlıq vizyonu üzərində qurulmuşdur. İki ölkə arasında əməkdaşlığın ən çox sistemləşmiş sahələrindən biri olan əmək münasibətləri, sosial müdafiə və məşğulluq siyasətləri 30 ildən artıq müddətdə aparılan birgə fəaliyyətlər nəticəsində əhatəli hüquqi çərçivəyə malik olmuşdur. Bu çərçivə həm qarşılıqlı təcrübə mübadiləsini, həm də sosial müdafiə hüquqlarının qorunmasını təmin etməklə, iki ölkə arasında strateji tərəfdaşlığın sistemləşmiş əsaslarını daha da möhkəmləndirmişdir. Nəticə etibarilə qarşılıqlı investisiyalar artmaqda və hər iki ölkənin iqtisadiyyatına çoxşaxəli töhfə verəcək əməkdaşlıqların inkişafı üçün münbit şərait yaranmaqdadır.

## Sosial müdafiə sahəsində tənzimləmələr

Türkiyə ilə Azərbaycan arasında sosial müdafiə sahəsində münasibətlərin əsasını 17 iyul 1998-ci il tarixində Ankarada imzalanmış və 9 avqust 2001-ci ildə qüvvəyə minmiş "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında sosial müdafiə sahəsində əməkdaşlıq haqqında Saziş" təşkil edir. Sazişin icrasına dair Prosedur Müqavilə isə 6 may 2004-cü il tarixində Bakıda imzalanaraq qüvvəyə minmişdir. Bu sənədlər hər iki ölkə vətəndaşlarının sosial sığorta stajlarının qarşılıqlı tanınmasını və sosial müdafiəsi hüquqlarının qorunmasını nəzərdə tutan əhatəli müddəalar ehtiva edir.

Türkiyədə 4447 saylı Qanunla işsizlik sığortasının tətbiqinə

başlanıldıqdan sonra, işsizlik sığortası ilə bağlı müddəaların da daxil edilməsi məqsədilə mövcud Sazişin yenilənməsini nəzərdə tutan Əlavə Saziş 18 sentyabr 2006-cı il tarixində Bakıda imzalanmış və 14 dekabr 2011-ci il tarixindən etibarən qüvvəyə minmişdir.

## Əmək resursları və əməkdaşlıq sahəsində tənzimləmələr

İki ölkə arasında əmək resurslarının hərəkətliliyinə dair hüquqi çərçivə 13 noyabr 2013-cü il tarixində Ankarada imzalanmış və 18 iyun 2014-cü ildə qüvvəyə minmiş "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında işçi qüvvəsinin qarşılıqlı əmək fəaliyyətinə dair Saziş" ilə formalaşdırılmışdır. Əmək münasibətləri sahəsində sistemləşmiş əməkdaşlıq isə 1995-ci il tarixli Əməkdaşlıq Protokolu ilə başlanmış, 1997-ci il tarixli Nazirliklərarası Əməkdaşlıq Sazişi ilə genişləndirilmiş və müasir tələblərə uyğun olaraq yenilənərək 13 noyabr 2013-cü ildə imzalanmış, 11 iyun 2014-cü ildə qüvvəyə minmiş "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında əmək, sosial müdafiə və məşğulluq sahələrində əməkdaşlığa dair Saziş" ilə aktual vəziyyətə uyğunlaşdırılmışdır.

## Birgə Daimi Komissiyanın korporativ rolu

İki ölkə arasında institusional və texniki əməkdaşlığın təmin edilməsində əsas mexanizm 2002-ci ildə yaradılmış "Türkiyə-Azərbaycan arasında əmək və sosial müdafiə sahəsində əməkdaşlıq üzrə Birgə Daimi Komissiyası"dır. Komissiya 2004-cü ildən etibarən mütəmadi olaraq keçirilən iclaslar vasitəsilə əməkdaşlıq fəaliyyətlərinin planlaşdırılmasını, əlaqələndirilməsini və icrasına nəzarəti davam etdirir. Qeyd etmək lazımdır ki, Türkiyə üçün ən köklü Birgə Daimi Komissiya mexanizmi məhz Azərbaycan ilə formalaşdırılmışdır.

Birgə Daimi Komissiyasının 11-ci iclası 30 may 2024-cü il tarixində Bakıda keçirilmiş, iclasın yekununda qəbul edilmiş 2024-2025-ci illər üzrə Fəaliyyət Planında nəzərdə tutulan 30 tədbirin əksəriyyəti uğurla icra olunmuş, icra olunmayan fəaliyyətlər isə 2026-2027-ci illər dövrünə keçirilmişdir.

Birgə Daimi Komissiyasının 12-ci iclası isə Türkiyə Respublikasının əmək və sosial müdafiə naziri cənab Prof. Dr. Vedat Işıkhan və Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri cənab Anar Əliyevin həmsədrliyi ilə, cənab Anar Əliyevin vəzifəyə təyin olunduqdan sonra həyata keçirdiyi ilk xarici səfər çərçivəsində 2 sentyabr 2025-ci il tarixində Ankarada keçirilmiş və iclasın sonunda imzalanan Protokol ilə 2026–2027-ci illər üzrə Fəaliyyət Planı rəsmi olaraq qəbul edilmişdir. Sözügedən Plan ümumilikdə 35 fəaliyyət tədbirini əhatə edir.



İki ölkə arasında institusional və texniki əməkdaşlığın təmin edilməsində əsas mexanizm 2002-ci ildə yaradılmış "Türkiyə-Azərbaycan arasında əmək və sosial müdafiə sahəsində əməkdaşlıq üzrə Birgə Daimi Komissiyası"dır. Komissiya 2004-cü ildən etibarən mütəmadi olaraq keçirilən iclaslar vasitəsilə əməkdaşlıq fəaliyyətlərinin planlaşdırılmasını, əlaqələndirilməsini və icrasına nəzarəti davam etdirir. Qeyd etmək lazımdır ki, Türkiyə üçün ən köklü Birgə Daimi Komissiya mexanizmi məhz Azərbaycan ilə formalaşdırılmışdır.

Birgə Daimi Komissiyasının 11-ci iclası 30 may 2024-cü il tarixində Bakıda keçirilmiş, iclasın yekununda qəbul edilmiş 2024-2025-ci illər üzrə Fəaliyyət Planında nəzərdə tutulan 30 tədbirin əksəriyyəti uğurla icra olunmuş, icra olunmayan fəaliyyətlər isə 2026-2027-ci illər dövrünə keçirilmişdir.




## Münasibətlərdə mövcud inkişaflar

Türkiyə Respublikasının Əmək və sosial müdafiə naziri cənab Prof.Dr. Vedat Işıkhan 5 dekabr 2025-ci il tarixində Bakıda keçirilmiş Türk Dövlətləri Təşkilatının (TDT) əmək, məşğulluq və sosial müdafiə nazirlərinin iclası çərçivəsində etdiyi çıxışında Türk dünyasında əmək və sosial siyasət sahəsində sistemləşmiş əməkdaşlığın əldə etdiyi səviyyəyə diqqət çəkmişdir. Nazirimiz bu prosesin əsas mərhələlərindən birinin 30 oktyabr 2024-cü il tarixində Ankarada Əmək və Sosial Müdafiə Nazirliyinin ev sahibliyi ilə keçirilmiş "Türk Dövlətlərində Sosial Müdafiə, Əmək Münasibətləri və Sosial Xidmətlər" mövzusunda dəyirmi masa toplantısı olduğunu vurğulamışdır.

